# MARAQ KATEQORİYA KİMİ, ONUN HÜQUQDA İFADƏSİ

**E.A.XƏLƏFOV**
***Bakı Dövlət Universiteti***
***Khalafov.elchin@ gmail.com***

*Maraqlar həmişə insanların həyat fəaliyyətinin, dövlət və ictimai institutların yaradılmasının və mövcudluğunun güclü amili kimi çıxış edir, əsas sövqedici stimul qismində çıxış edir və hüquqyaratmada, hüquq aktlarının yaradılmasında, hüquq tətbiqində iştiraka olan ictimai iddiaları ifadə edir.*

*Hüquq özünün mahiyyəti etibarilə dövlət iradəsi ilə normativ hüquqi təsbitini tapmış və müdafiə olunan maraqdir. Məhz hüquq normaları (davranış qaydaları – normalar nəzərdə tutulur) marağın əsas komponentini ehtiva edir.*

Ümumi və xüsusi hüququn çoxəsrlik yanaşı mövcudluğu çox vaxt siyasi qüvvələrin maraqlarının mütəhərrik balansını, vətəndaşların azadlıq və müstəqillik ölçüsünü əks etdirmişdir (9, 3).

Maraqların dərkinin spesifikliyinin açıqlanması, dəyər yönümlərinin rolunun aydınlaşdırılması hüquq münasibətlərinin xüsusiyyətlərini daha dərindən qiymətləndirməyə, qanunvericiliyin təkmilləşdirilməsi yollarını aşkara çıxarmağa imkan verir. Məhz qanunvericilik normalarında əksini tapmış maraqların öyrənilməsi hüququ daim inkişaf etməkdə olan elm kimi təqdim etməyə imkan verir, onun sosial tənzimləmə imkanlarını aşkara çıxarmağa şərait yaradır.

«Maraq» «əhəmiyyət kəsb edən» deməkdir. Adi şüur səviyyəsində bu anlayış aşağıdakı mənaları ehtiva edir:

1) nəyəsə xüsusi diqqət, mahiyyətinə (məğzinə varmaq), bilmək, başa düşmək istəyi;
2) əhəmiyyətlilik, önəmlilik;
3) ehtiyaclar, tələbatlar;
4) fayda, qazanc (danışıq) (7, 249).

Lakin onun elmi tədqiqatlarda belə geniş dərkini hüquqauyğun saymaq olmaz. Belə ki, marağın tələbat, ehtiyac və fayda ilə eyniləşdirilməsi etiraz doğurur.

«Maraq» kateqoriyası bir çox elmlərin: iqtisadi nəzəriyyənin, psixologiyanın, sosiologiyanın, fəlsəfənin predmetini təşkil edir ki, bu da onun əhəmiyyətini sübuta yetirir.

Bütün bu vaxt ərzində və sonradan həmin anlayışın mənası dəfələrlə dəyişmişdir.

Maraq kateqoriyası müxtəlif elmlər tərəfindən tədqiq olunur ki, bu da onun ümumelmi kateqoriya olduğunu söyləməyə əsas verir.

Fəlsəfədə maraq sosial hərəkətlərin və hadisələrin fəal subyektlərin istəklərinin

arxasında duran səbəbi hesab olunur.

İqtisadçı alimlər maraq kateqoriyasının anlayışını müəyyən edərkən belə bir cəhəti etiraf edirlər ki, maraqlar sosial subyektlər arasında iqtisadi tələbatların təmin edilməsi üçün təkrar məhsul istehsalı ilə bağlı bilavasitə münasibətlərdir (5, 45) .

Sosiologiyada maraq subyektlərin özlərinin həyat şəraitinə və mövcud tələbatlarına obyektiv münasibəti kimi başa düşülür.

Psixoloq alimlər marağı insanın müəyyən psixi halı, onun diqqətinin hansısa predmetə yönəlməsi kimi başa düşürlər (8, 48). Özü də marağın yaranma mənbəyi kimi tələbat göstərilir. Marağın tələbatdan fərqini bunda görürlər ki, maraq kateqoriyası insanın intellektual fəaliyyəti ilə ayrılmaz surətdə bağlı olduğu halda (4, 68), tələbat belə əlamətə malik deyildir (1, 73).

Əlbəttə, psixoloqlar üçün marağın subyektini şəxsiyyət kimi insan təşkil edir. Onlar idrakın fəallığına böyük diqqət yetirirlər.

Təqdim edilən təriflərdən göründüyü kimi, hər bir elm çərçivəsində marağın mahiyyəti, məzmunu, subyektləri etibarilə, habelə digər elmi kateqoriyalarla nisbətinə görə fərqlənən xüsusi anlayışı mövcuddur.

Ümumelmi kateqoriya kimi maraq problemi bundan ibarətdir ki, onun fərqli dərki ilə əlaqədar maraq kateqoriyasının iki izahı meydana çıxmışdır. Psixoloji izaha görə, maraq subyektiv kateqoriya olduğu halda, sosioloji izaha görə maraq obyektiv və ya obyektiv-subyektiv kateqoriyadır. Elə görünə bilər ki, iki müxtəlif təzahürdən – insanların ictimai varlıq təzahürü kimi maraqdan (obyektiv maraqdan) və insanların şüurunun təzahürü kimi maraqdan (subyektiv maraqdan) söz açmaq olardı.

Beləliklə, mövcud yanaşmaları ümumiləşdirərək, marağa forma etibarilə ictimai münasibəti ifadə edən, məzmunu sosial xarakterə malik tələbatdan ibarət olan və məqsədlərin dərkində və realizəsində təzahür edən obyektiv elmi kateqoriya kimi tərif vermək olar.

Maraq kateqoriyası hüquq elminin də diqqətindən kənarda qalmamışdır. Belə ki, maraq kateqoriyasını hərtərəfli öyrənmədən hüquqi tənzimləmənin real ictimai münasibətlərlə qarşılıqlı fəaliyyət mexanizmini müəyyən etmək mümkün deyildir.

Rudolf fon İyerinq haqlı olaraq hüquq sisteminin sosial əsası kimi maraq kateqoriyasının hüquqa tətbiqinin müəllifi hesab olunur. O zaman təşəkkül tapmış təsəvvürə görə, hüququn təbiəti müxtəlif sosial subyektlərin maraqlarının ictimai tənzimlənməsi və uzlaşdırılması zərurətindən ibarət idi.

R.f İyerinq özünün ictimai-hüquqi təlimində insanın, ictimai qrupların, cəmiyyətin maraqlarının müəyyən subordinasiyasını müəyyən edir, bu zaman çoxluğun maraqlarına müəyyən üstünlük verilir. O, tarixi anlamda hüququ faktiki olaraq müxtəlif sosial subyektlərin maraqlarının subordinyasiyası və uzlaşdırılması sistemi kimi çıxış edən məcburetmə sistemi ilə əsaslandırır. Onun hüquqa verdiyi tərifə görə, hüquq cəmiyyətin dövlət məcburetməsi ilə təmin edilən həyat şərtlərinin məcmusudur.

Lakin bizim fikrimizcə, R.f İeyrinqin hüquq sistemində öz-özlüyündə məcburetmə önəmli deyildir, onun müxtəlif sosial subyektlərin maraqlarının insanların real həyati maraqları ilə ictimai tənzimlənməsi və uzlaşdırılmasının zəruriliyini əsaslandırması fikri əhəmiyyət kəsb edir. R.f İyerinqin davamçıları Roskopaund (sosioloji hüququn müəllifi), F.Gek, Q.Ştol, R.Müller-Erzbax («maraqlar hüququ» məktəbinin nümayəndələri) onun təliminin məhz bu müddəasını vurğulamışlar (3, 92, 6, 89).

R.f.İyerinq öz müasirləri arasında mülki hüquq münasibətində marağın rolunun ən düzgün izahını verir. Hər bir subyektiv mülki hüquq insana onun tələbatlarının

təmin edilməsinə xidmət edən hansısa əmlak, yaxud qeyri-əmlak neməti bəxş etmək üçün mövcuddur (2, 5).

Hazırda hüquqda marağın ümumelmi anlamından fərqli anlayışı formalaşmışdır. Hüquqşünaslar hüquqda fəlsəfi anlamda münasibət (qarşılıqlı hüquq və vəzifələr şəklində olması mütləq sayılmayan hüquqi əlaqə) kimi deyil, həmin əlaqənin və onun elementləri kimi nəzərdə tutulan elementlərin – subyektlərin, onların hüquq və vəzifələrinin (hüquqi məzmun), onların davranışının (faktiki məzmun), habelə hüquq münasibətinin obyektinin və predmetinin vəhdəti kimi çıxış edən hüquq münasibətinin anlamına olan yanaşmaya analoji yanaşma seçmişlər.

Bu isə o deməkdir ki, maraqların hüquqi tənzimlənməsi onların elementlərinin hüquqi tənzimi vasitəsilə, yəni onların lazımi hüquqi ifadəsi vasitəsilə həyata keçirilir.

İctimai münasibətlərin hüquqi tənzimlənməsində maraq kateqoriyasının rolunu nəzərdən keçirmək üçün onların təsnifatının aparılması zəruridir. Elmi ədəbiyyatda maraqların təsnifləşdirilməsinin bir çox əsasları təklif olunmuşdur. Lakin hüquqi təhlil məqsədləri baxımından maraqların subyektlər üzrə və ictimai münasibətlərin növləri üzrə təsnifatları daha mühüm hesab edilə bilər.

Maraqların xüsusi və ümumi növlərə bölünməsi önəmlidir, çünki belə təsnifat mövcud olduqda hüququn xüsusi və ümumi növlərə bölünməsinin meyarı kimi maraqdan söz açmaq olar. Belə ki, hələ Qabriel Feliksoviç Şerşeneviç hesab edirdi ki, «xüsusi, ailə maraqları aləminin ictimai maraqlara qarşı qoyulması hər kəsə o dərəcədə təbii görünür ki, belə bölgüdən ümumi və xüsusi hüquq arasında fərqləndirmə üçün əsas qismində istifadə edilir».

Xüsusi maraqlara konkret şəxslərə və sosial qruplara xas olan, hüquqla qorunan maraqlar kimi tərif vermək olar. Ümumi marağa tərif verilərkən marağın ümumiliyinin substansional təbiəti etibarilə anlamının dəqiqləşdirilməsi zərurəti yaranır. Belə anlama iki yanaşma mövcuddur.

Birinci nominalist yanaşmaya görə ümumi maraq xüsusi maraqların qarşılıqlı təsirinin nəticəsidir.

İkinci realist yanaşma da ümumi marağı xüsusi maraqların fövqündə yerləşən, onlarla məhdudlaşmayan və belə maraqlara münasibətdə ilkin olan təzahür kimi izah edir. Həmçinin ümumi və dövlət maraqlarının nisbəti məsələsi meydana çıxır. Bir çox tədqiqatçılar Hegelin hüquq fəlsəfəsinin təsiri altında dövlət və ümumi maraqların eyniyyətindən çıxış edir.

Lakin unutmaq olmaz ki, dövlət bəzən cəmiyyətdən uzaq düşür və o zaman bürokratik maraqlar dövlət maraqları kimi təqdim olunur, hərçənd ideal vəziyyətdə dövlət səmərəli və ahəngdar sosial inkişafa yönəlmiş ümumi maraqların ifadəsinə can atmalıdır.

Ümumi və xüsusi maraqların balansının saxlanılması da önəmlidir. Bir tərəfdən, qanunvericilik səviyyəsində onların vəziyyətinin təsbiti zəruridir. Digər tərəfdən isə, dövlətin xüsusi maraqlar sahəsinə əsassız müdaxiləsi imkanı yaranır, dövlət aparatının maraqları ümumi maraqlar kimi qələmə verilə bilər, habelə qanunlar qəbul edilərkən ayrı-ayrı şəxslərin maraqlarının lobbiləşdirilməsi, yəni cəmiyyətin obyektiv maraqlarına cavab verməyən maraqların qanunvericilik qaydasında təsbiti cəhdi mümkündür.

Hüquqi tənzimləmə sistemində maraq kateqoriyasının rolu öyrənilərkən qanuni maraq və subyektiv hüquq kimi yaxın anlayışların müqayisəsi də zəruridir. Cəmiyyətin inkişafı prosesində şəxsiyyətin tələbatlarının təmin edilməsinin müxtəlif

hüquqi vasitələri işlənib hazırlanmışdır, onların arasında subyektiv hüquqlar və qanuni maraqlar xüsusi yer tutur.

Subyektiv hüquqları öyrənməyə başlamış ilk hüquqşünas alimlər iradə nəzəriyyəsini ifadə etmiş Fridrik Karl fon Savinyi və maraqlar nəzəriyyəsi ilə çıxış edən Rudolf fon İyerinq olmuşlar. Bu gün hər iki nəzəriyyəni nəzərə aldıqda subyektiv hüquq dedikdə adətən dövlət tərəfindən yaradılan və obyektiv hüquq normaları vasitəsilə təmin edilən, subyektin özünün ictimai maraqlarına və tələbatlara zidd olmayan maraq və tələbatlarının təmin edilməsi məqsədilə fəaliyyətinə şərait yaradan hüquqi imkan başa düşülür. Subyektiv hüquqa qarşı həmişə vəzifə durur və onlar birlikdə hüquq münasibətini təşkil edirlər.

Subyektiv hüquq kimi qanuni maraq də hüquqi icazədir, yəni hüquqi vasitədir, digər tərəfdən isə o həm də xüsusi sosial təzahürdür.

Elmi ədəbiyyatda qanuni marağın mövcudluğunu şərtləndirən səbəblərin bir-biri ilə sıx surətdə bağlı olan kəmiyyət, keyfiyyət və iqtisadi qrupları fərqləndirilir. Lakin bizim fikrimizcə, məhz kəmiyyət səbəbləri kateqoriyanın özünün mahiyyətini izah etməyə daha yaxşı kömək göstərir. O cümlədən, ictimai həyatın faktiki münasibətin hüquqi münasibətə çevrilməsi yolu ilə tənzimlənməsi mümkün olmayan bir çox sahələri mövcuddur. Belə halda qanuni maraq sadə icazədən tənzimləmə üsulu kimi istifadə etməyə imkan verir. Qanuni maraqlar həmçinin hüquqdakı boşluqlar probleminin həllinə kömək göstərir. Münasibətlərin bütün müxtəlifliyində normativ aktlar qəbul edilərkən bütün yeni yaranan sosial imkan və maraqların nəzərə alınaraq subyektiv hüquqlar dərəcəsinə qaldırılması, yəni qanunvericilikdə ifadəsi mümkün deyildir.

Beləliklə, qanuni maraq həm müstəqil müdafiə predmeti, həm də xüsusi hüquqi vasitə kimi çıxış edərək, ayrı-ayrı şəxslərin maraqlarının realizəsi və müdafiəsi imkanının genişlənməsinə təkan verə bilər.

## ƏDƏBİYYAT


1. Абалкин Л.И. Экономические законы, интересы и методы хозяйственной деятельности // Коммунист, 1967, №6.
2. Борзенко Л. Учредительство и железные дороги. Очерк железнодорожного права / Интерес и право. Сочинение д-ра Рудольфа фон Иеринга, Ярославль: 1980, с. 153.
3. Завьялов Ю.С. Проблема интереса в марксистской теории социалистического права: Дис. канд. юрид, наук. М.: 1968, 298 с.
4. Интересы и стимулирование в современной российской экономике (Сборник научных работ) /Отв. ред. Б.Я.Гершкович. Пятигорск: 1996, 142 с.
5. Интересы в системе экономических отношений социализма /Отв. Ред.: Палкин Ю.И., Пахомов Ю.Н. Киев: Науково думка, 1974, 240 с.
6. Куликов А.К. Категория интереса в социологической теории Роско Паунда // Правоведение. 1977, № 6 .
7. Ожегов С.И., Шведова Н.Ю. Толковый словарь русского языка. М.: Наука, 1997.
8. Радаев В.Я. Экономические интересы при социализме. М.: 1971, 120 с.
9. Тихомиров Ю.А. Публично-правовое регулирование: динамика сфер и методов. Журнал российского права. М.: 2001, №5, с. 3.
10. Тарановский Ф.В. Интерес и нравственный долг в праве. Варшава: 1999, 20 с.

## ИНТЕРЕС КАК КАТЕГОРИЯ, ЕГО ВЫРАЖЕНИЕ В ПРАВЕ

**Э.А.ХАЛАФОВ**

**РЕЗЮМЕ**

Интересы всегда выступают мощным фактором жизнедеятельности людей, создания и функционирования государственных и общественных институтов, служат важным побудительным стимулом и выражают общественные притязания на участие в правотворчестве и создании правовых актов, в правоприменении.

Право в сути своей есть нормативно юридически закрепленный государственной волей и защищенный интерес. Именно нормы права( имеются в виду нормы-правила поведения) и заключают в себе основной компонент интереса.

## INTEREST AS A CATEGORY, ITS EXPRESSION IN THE LAW

**E.A.KHALAFOV**

**SUMMARY**

Interest always acts as the powerful factor of people's live creations and functioning of state and public institutes, serves as the important incentive stimulus and expresses public claims on participation in law-making and creation of legal acts in application of law.

The right in the essence is a standard legally fixed by the state will and the protected interest. Norms of the right (norms-rules of behaviour mean) comprise the basic component of interest.